# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №9 (7480) | 12 iyul 2020-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan şəhər İcra Hakimiyyətində video-müşavirə keçirilib



**Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun sədrliyi ilə keçirilən videomüşavirədə şəhər İcra Hakimiyyətinin məsul işçiləri, şəhər İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri, şəhərin təhsil və səhiyyə müəssisələrinin rəhbərləri, şəhər və qəsəbə bələdiyyələrinin sədrləri, həmçinin xidmət təşkilatlarının rəhbərləri iştirak edib.**



Video-müşavirədə giriş sözü ilə çıxış edən şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov koronavirus(COVID-19) pandemiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması və xalqımızın yolxucu infeksiyadan az zərərlə çıxması istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə zəruri qabaqlayıcı tədbirlərin görüldüyünü, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin davam etdirildiyini bildirib.

İlqar Abbasov xüsusi karantin rejimi müddətində şəhər İcra Hakimiyyəti başçısı yayında yaradılmış Operativ Qərərgah tərəfindən təsdiq edilmiş tədbirlər planına uyğun olaraq təxirəsalınmaz işlərin həyata keçirildiyini, yoluxma riskinin azaldılması istiqamətində zəruri tədbirlərin davam etdirildiyini bildirib. Xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsi məqsədi ilə yaradılmış 35 mobil qrup üzvləri tərəfindən şəhər ərazisində və qəsəbələrdə izahetmə-xəbərdarlıq işləri davam etdirilib, əhalinin sıx olduğu məkanlarda, eləcə də ictimai nəqliyyatda qoruyucu maskalardan istifadənin zəruriliyi və sosial məsafənin gözlənilməsi ilə bağlı maarifləndirici söhbətlər aparılıb. Eyni zamanda, şəhər ərazisində parkların giriş hissələrinə təbliğat xarakterli plakatlar qoyulmuş, könüllü gənclərin iştirakı ilə əhali arasında yolxucu infeksiya haqqında maarifləndirici bukletlərin paylanılması təmin edilmiş, Nazirlər Kabineti yanında Operativ Qərərgahın tövsiyə və tapşırıqları və sanitar-epidemioloji tələblərlə bağlı məlumatlar dövrü olaraq şəhər İcra Hakimiyyətinin sosial şəbəkə hesablarında və rəsmi internet saytında yayımlanmışdır.

Əhalinin sağlamlığının qorunması məqsədi ilə şəhərin küçə və prospektləri xüsusi texnikaların köməyi ilə dezinfeksiyaedici maddələrlə yuyulub, Gigiyena və Epidemiologiya Mərkəzinin və şəhər Bələdiyyəsinin sanitar işçiləri tərəfindən yaşayış binalarının ətrafında, giriş bloklarında, pilləkən qəfəslərində, ticarət və xidmət obyektlərində, sərnişindaşıma xidməti göstərən nəqliyyat vasitələrində dezinfeksiyaedici maddələrlə sanitar-gigiyenik işlər aparılıb. Şəhər İcra Hakimiyyətinin başçısı eyni zamanda, prezident cənab İlham Əliyevin fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə ardıcıl və məqsədyönlü işlərin davam etdirildiyini, rüşvət və korrupsiya hallarına son qoymayan və dövlətin mənafeyinə ciddi zərbə vuran şəxslərin hüquq-mühafizə orqanları tərəfindən ciddi cəzalandırıldığını bildirib.

İlqar Abbasov qeyd edib ki, dövlət qulluğunda işləyən hər bir məsul şəxs korrupsiyaya qarşı mübarizə sahəsində cənab prezident tərəfindən verilmiş tövsiyə və tapşırıqlara ciddi riayət etməlidir.

Video-müşavirədə iştirak edənlər öz çıxışlarında xüsusi karantin rejiminin müddətinin 2020-ci ilin avqust ayının 1-dək uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılmasından sonra fəaliyyət sahələri üzrə yeni növ koronavirus(COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində şəhər ərazisində gördükləri işlər və həyata keçirilən qabaqlayıcı tədbirlər barədə ətraflı məlumatlar veriblər. Xüsusi olaraq qeyd olunub ki, şəhər ərazisində pandemiya əleyhinə bütün görülən tədbirlərin müsbət nəticə verməsi üçün vətəndaş məsuliyyəti mühüm əhəmiyyət kəsb edir və virusa qalib gəlməyin yeganə yolu məsuliyyətli davranmaq, karantin qaydalarına ciddi şəkildə riayət etməkdir.

Sonda İcra Hakimiyyətinin başçısı İlqar Abbasov xüsusi olaraq qeyd edib ki, vətəndaşlarımız dövlətimizlə həmrəy olmalı, karantin qaydalarına riayət etməklə həm özünü, həm də ətraflarında olan insanları və yaxınlarını qorumalıdır. Əgər buna tam əməl edə bilsək, tez bir zamanda vəziyyətdən çıxa bilməyimiz mümkün olacaqdır. Eyni zamanda, COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı şəhər ərazisindəki vəziyyət təhlil olunduqdan sonra yaradılmış mobil qrupların iştirakı ilə əhali arasında sosial məsafənin gözlənilməsi, lazımi fərdi qoruyucu vasitələrdən və dezinfeksiyaedici maddələrdən istifadə olunması, həmçinin şəxsi gigiyena tələblərinin gözlənilməsi ilə bağlı izahetmə-xəbərdarlıq işləri gücləndirilməli, ictimai-iaşə obyektlərində, taksi fəaliyyəti ilə məşğul olan avtonəqliyyat vasitələrində və ictimai nəqliyyatda sanitar-gigiyenik tələblərin gözlənilməsi təmin edilməli, ümumiyyətlə Nazirlər Kabineti yanında Operativ Qərərgah tərəfindən verilmiş tövsiyə və tapşırıqlara idarə müəsisə və təşkilatlar tərəfindən birmənalı şəkildə riayət olunması təmin edilməlidir.



## Şirvan şəhər İcra Hakimiyyəti yanında Operativ Qərərgahın növbəti video-müşavirəsi keçirilib

**Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun sədrliyi ilə keçirilən videomüşavirədə Şirvan şəhər prokuroru Fuad Məmmədov, Dövlət Təhlükəsizlik Xidmətinin Şivan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov, Şirvan şəhər Polis Şöbəsinin rəisi Hikmət Quliyev, 5 saylı Ərazi Vergilər İdarəsinin rəisi Fuad Mahmudov, Şirvan Regional Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi vəzifəsini icra edən Rəşad Nuriyev, şəhər İcra Hakimiyyətinin məsul işçiləri, İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri, səhiyyə müəssisələrinin rəhbərləri, şəhər və qəsəbə bələdiyyələrinin sədrləri iştirak edib.**

Video-müşavirədə giriş sözü ilə çıxış edən İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, olduqca təhlükəli virusdan Azərbaycan əhalisinin sağlamlığının qorunması və xalqımızın bu bəladan az itkilərlə xilas olması ilə bağlı ölkə prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən atılan addımlar, verilən müdrik qərarlar Azərbaycan xalqının rifahı üçün nəzərdə tutulmuşdur. Belə ki, pandemiya zamanı ölkə prezidentinin keçirdiyi müşavirələr, tibb müəssisələrinə və tibbi avadanlığa artan təlabatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili, vətəndaşlara ayrılan sosial yardımlar, tətbiq olunan vergi güzəştləri, sahibkarlara göstərilən dəstək, sosial həssas qruplara dəstək və atılan digər addımlar çətin karantin günlərində ölkə vətəndaşlarına göstərilən böyük diqqət və qayğının bariz nümunəsidir.

İlqar Abbasov müşavirə iştirakçılarının nəzərinə çatdırıb ki, koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması məqsədi ilə ölkə prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq şəhər ərazisində profilaktik tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi üçün Şirvan şəhər İcra Hakimiyyəti başçısının 19 mart 2020-ci il tarixli 54 nömrəli Sərəncamına əlavə və dəyişikliklər edilmişdir. Belə ki, xəstəliyə yoluxma dinamikasının yüksəldiyini nəzərə alaraq sanitar epidemioloji normalara qeydşərtsiz əməl olunması, insanlar arasında sosial məsafənin gözlənilməsi, lazımi fərdi qoruyucu vasitələrdən(maska) və dezinfeksiyaedici maddələrdən istifadə olunması, həmçinin şəxsi gigiyena tələblərinin gözlənilməsi məqsədi ilə şəhər İcra Hakimiyyəti, vergi və hüquq-mühafizə orqanları nümayəndələri, həmçinin yaradılmış mobil qruplar tərəfindən əhali arasında maarifləndirmə işi gücləndirilmiş iş rejimində davam etdiriləcək, eyni zamanda şəhər ərazisində fəaliyyət göstərən ictimai-iaşə obyektlərinə reydlər keçiriləcəkdir.

İlqar Abbasov xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara riayət etməyən hüquqi və fiziki şəxslərin inzibati qaydada cəzalandırılacağını, həmçinin cinayət məsuliyyətinə cəlb ediləcəyini bildirib. Video-müşavirədə yeni növ koronavirus(COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində şəhər ərazisində görülən işlər barədə ətraflı məlumat verilib, həyata keçiriləcək profilaktik tədbirlərlə bağlı təkliflər irəli sürülüb.

Yoluxma riskini nəzərə alaraq dəfn mərasimləri istisna olmaqla insanların kütləvi şəkildə yas mərasimlərində iştirakının qarşısının alınması və məscidlərdə kütləvi şəkildə dini ayinlərin icra olunmaması istiqamətində müvafiq tədbirlərin görülməsi, müxtəlif bank filiallarında və ödəmə terminallarında, xəstəxanalarda vətəndaşlar arasında sosial məsafəni saxlamaqla növbəlilik sisteminin tətbiq edilməsi, taksi fəaliyyəti ilə məşğul olan avtonəqliyyat vasitələrində və ictimai nəqliyyatda dezinfeksiya işlərinin aparılması, taksilərdə sərnişinlərin yalnız arxa oturacaqlarda əyləşməsi və birmənalı olaraq sürücü və sərnişinlərin fərdi qoruyucu vasitələrdən(maska) istifadə etməsi və digər həlli vacib məsələlər müzakirə edilmişdir.

İcra Hakimiyyətinin başçısı İlqar Abbasov müşavirənin sonunda bildirib ki, ölkə prezidentinin rəhbərliyi altında pandemiyaya qarşı həyata keçirilən taleyüklü və məsuliyyətli vəzifələr uğurla həyata keçiriləcək və önləyici tədbirlər sayəsində xalqımız bu bəladan az itkilərlə çıxmağı bacaracaqdır. Vətəndaş olaraq hər birimizin borcu belə bir həssas dönəmdə keçirilən tədbirlərə dəstək göstərməklə dövlətimizlə həmrəy olmaq, birlik və bərabərlik nümayiş etdirərək sanitar-gigiyenik tələblərə və xüsusi karantin rejiminin qaydalarına riayət etməklə həm özümüzü, həm də ətrafımızda olan insanları və yaxınlarımızı qorumaqdır.

# Şirvanda Dövlət qulluqçularının peşə bayramı qeyd edildi



**23 iyun - Azərbaycan Respublikasında Dövlət qulluqçularının peşə bayramı günü ilə əlaqədar Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov videomüşavirə keçirdi.**

Müşavirədən öncə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov ulu öndər Heydər Əliyevin şəhərin mərkəzi meydanda ucalan abidəsini ziyarət etdi. Abidə önünə tər gül dəstəsi qoyaraq əziz xatirəsinə dərin ehtiramını ifadə etdi.

Videomüşavirəni açan Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Dövlət qulluqçularını peşə bayramı günü münasibəti ilə təbrik etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli 1476 saylı Sərəncamı ilə 23 iyun gününün ölkəmizdə dövlət qulluqçularının peşə bayramı kimi təsis edildiyini qeyd etdi. Bildirdi ki, Azərbaycanın beynəlxalq aləmdə öz nüfuzunu möhkəmləndirməsi ümummilli lider Heydər Əliyevin dövlət idarəetmə sistemində həyata keçirdiyi islahatlardan başlayıb. Prezident İlham Əliyevin bu islahatları ardıcıl davam etdirməsi sayəsində ölkəmizin qüdrəti gündən-günə artır. Bu gün tam əminliklə demək olar ki, respublikamızda müasir tələblərə cavab verən dövlət idarəetmə sistemi qurulub, hakimiyyətin bütün qollarının funksiyaları dəqiq müəyyənləşdirilib, vətəndaşların hüquq və azadlıqlarının qorunması və həyata keçirilməsi üçün zəruri təsisatlar yaradılıb. Azərbaycanda dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Qanunun qəbul edilməsidir. Həmin qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib. Dövlət qulluğu sahəsində dünya təcrübəsini nəzərə alan bir çox sənədlər qəbul edilərək geniş hüquqi baza yaradılıb. Bu sənədlər Azərbaycanda dövlət qulluğunun əsas istiqamətlərini əhatə edərək dövlət qulluqçularının fəaliyyəti üçün lazımı hüquqi baza, müvafiq icra və nəzarət mexanizmi formalaşdırıb. Bütün bunlar cəmiyyətdə sosial ədaləti və vətəndaşların layiqli həyat tərzini təmin etmək, demokratik təsisatları inkişaf etdirmək, elmin, mədəniyyətin və təhsilin səviyyəsini yüksəltmək üçün dövlət qulluqçuları qarşısında geniş imkanlar açıb. Ölkəmizdə dövlət qulluqçularının peşəkarlığının artırılması daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dövlət qulluqçularının hazırlanmasında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçularının peşə səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Möhtərəm Prezidentimiz sənab İlham Əliyev tərəfindən Dövlət qulluqçularına da xüsusi diqqət və qayğı göstərilir. Onlar müxtəlif orden və medallarla təltif edilir. Şəhərimizdə də dövlət qulluqçularının əməyinə yüksək qiymət verilir. Təkcə şəhər İcra Hakimiyyətində çalışan 10 nəfərdən artıq dövlət qulluqçusu son illərdə müxtəlif orden və medallarla təltif edilib. İnanıram ki, şəhər İcra Hakimiyyətində çalışan dövlət qulluqçuları bundan sonra da vətəndaşların müraciətlərinə həssaslıqla yanaşacaq, ölkə rəhbərliyinin qarşımızda qoyduğu vəzifələri uğurla həyata keçirəcək, dövlət qulluğunun səmərəliliyini daha da artıracaqlar.

Sonra şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov İcra Hakimiyyəti başçısının aparatının, sahə və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin bir qrup işçisinə dövlət qulluğunun növbəti ixtisas dərəcəsinin verildiyini və Şirvan şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Samirə İsmayılovanın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edildiyini qeyd edərək təbrik etdi.

Videomüşavirədə çıxış edən dövlət qulluqçuları onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər, onlara da bayram münasibəti ilə təbriklərini çatdırdılar.

## TƏBRİK EDİRİK!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Şirvan şəhər İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Samirə Burcalı qızı İsmayılova «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif olunmuşdur.

S.İsmayılovanı təbrik edir, ona şərəfli və məsul işində uğurlar arzulayırıq.

**«İŞIQ» qəzeti redaksiyası**

# Koronavirus infeksiyası əleyhinə Şirvan şəhəri ərazisində profilaktik tədbirlərin həyata keçirilməsi davam etdirilir

**Ölkəmizdə elan olunmuş xüsusi karantin rejimi müddətində ölkə prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinin yerinə yetirilməsi, koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması istiqamətində Şirvan şəhəri ərazisində profilaktik tədbirlərin həyata keçirilməsi davam etdirilməkdədir.**

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şəhər Polis Şöbəsinin rəisi Hikmət Quliyev və 5 saylı Ərazi Vergilər İdarəsinin rəisi Fuad Mahmudov Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinə, habelə sanitar epidemioloji normalara qeyd-şərtsiz əməl olunması ilə tanış olmaq məqsədi ilə şəhər ərazisində fəaliyyət göstərən ictimai-iaşə obyektlərinə reydlər keçirmişdir.

Reydlər zamanı ictimai-iaşə və ticarət obyektləri sahibləri, eyni zamanda şəhər sakinləri ilə maarifləndirici söhbətlər aparılmış, ticarət obyektlərinin giriş hissələrində dezinfeksiyaedici maddələr olan xüsusi qabların yerləşdirilməsi, insanlar arasında sosial məsafənin gözlənilməsi, xidmətlərdən yararlanan şəhər sakinlərinin və satıcıların birmənalı şəkildə fərdi qoruyucu vasitələrdən(maska) istifadə etmələri barədə lazımi tövsiyələr verilmişdir.



Xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar epidemioloji normalara riayət eməyənlər barəsində inzibati qaydada təbirlərin görüləcəyi ictimai-iaşə və ticarət obyektləri sahiblərinin nəzərinə çatdırılmışdır.

Şirvan şəhəri ərazisində sanitariya-gigiyena norma və qaydalarına riayət edilməsinə ciddi nəzarət edilir və profilaktik tədbirlərin görülməsi davam etdiriləcəkdir.

# MÜSTƏQİLLİYİ QORUMAQ ONU ƏLDƏ ETMƏKDƏN ÇƏTİNDİR

**1998-ci ildən dövlət bayramı statusu alaraq hər il rəsmi bayram kimi qeyd edilən 15 iyun xalqımızın Milli Qurtuluş günüdür.**

Bu gün müstəqillik yollarında kövrək addımlarını atan gənc bir dövlətin parçalama, müstəqilliyini itirmə faciəsindən xilas olduğu gündür.

Tarixə bir nəzər... 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də müstəqilliyin ilk illəri siyasi hakimiyyət boşluğu və dövlətin əsaslarının, ordu və dövlət təhlükəsizliyi orqanları da daxil olmaqla, dövlətin bütün təsisatlarının boşluğu ilə əlamətdar idi. Ermənistanın ilhaqçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti daha da gərginləşdirirdi.

Vətənin bu ağır dövründə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi (1969-1982) olmuş, daha sonra Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışmış, Moskvada istefa verdikdən sonra 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi bu diyarın xilası yolunda fədakarlıq nümunələri göstərən Heydər Əliyev xalqın təkidli tələbləri ilə hakimiyyətə qayıtdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

1993-sü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin yol verdikləri başıpozuq hərəkətlər, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması planını tam gücü ilə işə salmışdı. İki illik müstəqillik tarixinə baxmayaraq, ölkə təbəddülatlar dalğasından hələ də xilas ola bilməmişdi.

1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi isə ölkəni tamamilə xaosa sürükləyirdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltmədi. Əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürüldü. Qiyamçı hərbi hissənin rəhbərliyi əvvəlcə Baş nazir və Milli Məclis sədrinin, sonra isə prezidentin istefasını tələb etdi. Vəziyyət nəzarətdən çıxır, ətraf rayonların icra başçıları zorla dəyişdirilir, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas alırdı. Ölənlər və yaralananlar var idi. Belə bir vaxtda dövləti məhv olmaqdan xilas etmək üçün ölkə rəhbərliyi Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi Bakıya dəvət etmək qərarına gəldi.

Bakıya qayıdandan sonra Surət Hüseynovla danışıqlar aparmaq məqsədilə Gəncəyə yola düşən ulu öndər Heydər Əliyev Milli Məclisin iclasında Gəncə hadisələri ilə bağlı arayış verdi. Beləliklə, iyunun 15-də Milli Məclisdə Heydər Əliyev istefa vermiş İsa Qəmbərin yerinə parlamentin sədri seçildi.

Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etdilər və Milli Məclis bu təklifi bəyəndi.

Bu şanlı tarix səhifəsini yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insan - Heydər Əliyev oldu. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir.

Müstəqilliyi qorumaq onu əldə etməkdən çətindir. Məhz milli qurtuluş günü müstəqilliyimiz məhv edilmə təhlükəsindən xilas oldu. Artıq dünya birliyində söz sahibi olmaqla təmsil olunan müstəqil dövlətimiz güclü iqtisadi-siyasi sistemi ilə daim inkişaf etməkdədir.



Müstəqilliyimizin xilaskarı ulu öndərimiz demişdir: "Müstəqilliyimiz əbədidir, sarsılmazdır, dönməzdir!"

Bu gün ölkə Prezidenti İlham Əliyev müstəqilliyimizin əbədiliyi üçün bütün imkanlarından bacarıqla istifadə edir.

**Minarə Paşayeva,**
**Şirvan şəhər 13№li tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi, Təhsildə inkişaf və innovasiyalar üzrə III Qrant müsabiqəsinin fərdi layihə qalibi**

## Oxucularımız yazırlar

# YAXŞIYA YAXŞI DEMƏK LAZIMDIR

**Ahıl yaşdayam. Uzun illər şəhərimizdəki nəqliyyat sahəsində üzərimə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışmışam.**

Doğma şəhərimizdəki uğurlarımıza həmişə sevinmişəm. Bu müddətdə-sovetlər dönəmində birinci şəxslərin- katiblərin, müsətqillik illərində icra başçılarının gördükləri işlər gözlərim qarşısındadır. Kimin necə işləməyinə qiymət vermək fikrindən uzağam. Necə deyərlər, elin gözü tərəzidir. Kim bu şəhər üçün, insanları üçün yaxşı iş görübsə alqışa layiqdir.

Ötən ilin son aylarında ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə şəhərimizə İlqar Abbasov icra başçısı təyin edildi. İnsanlara qarşı həddindən artıq diqqətli, qayğıkeş olan İlqar müəllim az vaxtda rəğbət, məhəbbət qazandı. O, ölkə Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələri əsasında hərəkət etdiyini söyləyir, vətəndaşları həssaslıqla dinləyir, imkan daxilində xahişlərinin, təkliflərinin müsbət həllinə çalışır. Ona görə də sakinlər başçının qəbuluna ümidlə yollanırlar. Düzdür, koronovirus pandemiyası başlayandan sonra başçının qayğısı da artmışdır. O, pandemiyaya qarşı tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində əməli tədbirlər görür. Küçələr, parklar, idarə və müəssisələr dezinfeksiya olunur. Əhali ilə maarifləndirici söhbətlər aparılır. Eyni zamanda İlqar müəllim tez-tez yaşayış məhəllələrinə gedir, çatışmazlıqlarla yerindəcə tanış olur, nöqsanların tez vaxtda aradan qaldırılması üçün qəti tədbirlər görür.

Şəhərimizdə su-kanalizasiya sisteminin təzələnməsi istiqamətində işlər uğurla aparılır. Məhəmməd Füzuli adına Şirvan parkı yenidən qurulur. 21 nömrəli tam orta məktəbin tikintisində işlər sürətlə aparılır.

Digər sahələrdə də nəzərəçarpacaq irəliləyiş var. Bu da bir şəhər sakini kimi məni hədsiz sevindirir. İnanırıq ki, ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriabn xanım Əliyevanın qayğı və diqqəti hesabına respublikamız bundan sonra daha da çiçəklənəcək. Biz sakinlər də prezidentin səlahiyyətli nümayəndəsi İlqar Abbasovun apardığı abadlıq və quruculuq işlərində ona köməkçi olacağıq.

**Yadigar KƏRİMOV,**
**1 May küçəsi 125 nömrəli evin sakini**

**İlqar müəllim Abbasov Şirvan şəhər İcra Hakimiyyətinin başçısı təyin olunduqdan sonra onun sakinlərlə müntəzəm görüşləri, insanlarla səmimi söhbəti, açıq ünsiyyəti diqqətimizi cəlb etdi. Qaldırılan məsələlər, problemlərin həlli istiqamətində əməli tədbirlər görülməyə başlandı. Şəhərin abadlığına, səliqə-səhmanına, yaşıllığın artırılmasına və qorunmasına diqqət artırıldı.**

# ÖZÜMÜZDƏN ASILI OLANI EDƏK

Əlbəttə bu bir şəhər sakini kimi məni hədsiz sevindirirdi. Təəssüf ki, koronovirus pandemiyası dünyanı bürüdü. Düzdür respublikamızda dövlət səviyyəsində bu bəlanın qarşısının alınması istiqamətində məqsədyönlü tədbirlər görüldü. Bu isə bizləri daha ağır itkilərdən qorudu.

Pandemiya şəhərimizdən də yan keçmədi. Görülən işlərin bəzilərinin sürəti azaldı. Belə şəraitdə hər birimiz ələ verib şəhərimizin abadlığı, yaşıllığı üçün daha çox iş görməliyik.

Konkret fakt söyləmək istəyirəm. Gülbala Şıxbala oğlu küçəsindəki 12 nömrəli binanın 1 nömrəli mənzilində yaşayıram. Gülbala Şıxbala oğlu küçəsi ilə İsmət Qayıbov küçəsinin kəsişdiyi yerdə qonşumuz Xaləddin Şahbazov yaşayır. Qonşumuz X.Şahbazovu hər gün sübhdən yaşadığı binanın qarşısında görürük. O öz fiziki gücü, imkanı ilə binasının qarşısındakı yaşıllığa, abadlığa qulluq edir. Onun səyi bəhrəsini verib. Xidmət etdiyi ərazi təmiz, səliqəlidir. Gül-çiçək diqqəti cəlb edir.

Təklifim budur: qonşumuzdan nümunə götürək. Öz yaşadığımız binanın, mənzilin qarşısında, küçədə yaşıllığa xüsusi qayğı ilə yanaşaq. Bu gün hər şeyin dövlətin hesabına ediləcəyinə ümid etməyək. Əgər bu təşəbbüsə hamılıqla qoşulsaq bu ümumi işimizin xeyrinə olar.

**Arif SƏFƏROV,**
**şəhər sakini**

## Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2020-ci ilin üçüncü rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair
## C Ə D V Ə L

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1 | Şirvan şəhəri, 14 saylı Nümunəvi məhəllə | 03.07.2020 | Prokuror vəzifəsini icra edən Rain Əliyev |
| 2 | Şirvan şəhəri, Bayramlı qəsəbəsi | 31.07.2020 | Prokurorun köməkçisi Nərirman Nərimanlı |
| 3 | Dövlət Qaçqınlar Komitəsinin Şirvan şəhərindəki nümayəndəliyi | 04.08.2020 | Prokuror vəzifəsini icra edən Rain Əliyev |
| 4 | Şirvan şəhəri, Təhsil şöbəsi | 28.08.2020 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |
| 5 | Şirvan şəhəri, Hacıqəhrəmanlı qəsəbəsi | 02.09.2020 | Prokuror vəzifəsini icra edən Rain Əliyev |
| 6 | Şirvan şəhəri, 17 saylı nümunəvi məhəllə | 30.09.2020 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |

**Rain ƏLİYEV,**
**Şirvan şəhər prokuroru vəzifəsini icra edən baş ədliyyə müşaviri**

# KARANTİN REJİMİNDƏ TƏDBİRLƏRİMİZ DAVAM ETDİRİLİR

**Covid- 19 pandemiyası ilə əlaqədar ölkə ərazisində xüsusi karantin rejimi başladığı gündən Şirvan şəhər Qızıl Aypara Cəmiyyəti də dövlətimizin həyata keçirdiyi qabaqlayıcı tədbirləri tam dəstəkləyərək fəaliyyətini davam etdirir. Hər zaman olduğu kimi, bu dəfə də ehtiyacı olan insanlara dəstəyi diqqət mərkəzində saxladıq.**



İş adamlarının dəstəyi ilə Qarabağ qazilərinin, Qarabağ müharibəsi əlillərinin, tənha, kimsəsizlərin, qocaların, ailə başçısını itirmiş qadınların, valideynlərini itirmiş uşaqların, az təminatlı insanların evlərində olmuş, onlara ərzaq yardımları edilmişdir.

Ümumilikdə kəsgin ehtiyacı olan 300 nəfərə ərzaq yardımı göstərilmişdir.

Xüsusi karantin rejimi qaydalarına riayət edərək, şəhərin bəzi ərazilərində pandemiya ilə əlaqədar söhbətlər aparmış, maarifləndirici broşurlar paylamışıq.

Çətinliklərə baxmayaraq həyat öz axarı ilə davam edir.

Bəzi aztəminatlı ailələr bizə üşaqlarının sünnət edilməsinə kömək göstrəməyimizi xahiş etmişdilər. Biz də şəhərimizin tibb müəssisələri ilə əlaqə saxladıq. Onlar bu təklifi həmişəki kimi razılıqla qarşıladılar. Bu günlərdə 25 uşağ sünnət olunmuşdur. Bundan sonra da bu aksiya davam edəcək.

Tədbirlərimiz bununla məhdudlaşmır.

Az təminatlı ailənin bir üzvünün kəskin pankratit əməliyyatına ehtiyac vardı. Bu əməliyyatı Bakıdakı «Dobromed» hospitalının rəhbərliyi üzərinə götürdü. Əməliyyat uğurla, təmənnasız başa çatdı.

Pandemiya dövründə ərzaq yardımına ehtiyacı olanlarla müntəzəm əlaqə saxlayırıq. Qardaş Türkiyənin «Tika» təşkilatı bu sahədə köməyimizə çatdı. 60 paket ərzaq yardımı imkansız ailələrə paylandı.

Covid -19-dan qorunmağın vacib şərtlərindən biri sanitar-gigyenik qaydalara ciddi əməl olunmaqdır. Bu məsələni də diqqətdə saxlayırıq. Əlaqə saxladığımız PG şirkəti Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birlikdə 30.000 ailəyə «Bir damın altında ümidlə sabaha» adı ilə gigiyenik bağlama paylamışdır. 250 bağlama Şirvan şəhər Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağ qaziləri, Qarabağ əlilləri, az təminatlı və çoxuşaqlı ailələrə verilmışdır.

**Gülbikə KƏRİMOVA,**
**Qızıl Aypara Cəmiyyəti Şirvan şəhər şöbəsində gənclər üzrə təlimatçı**

# FÜZULİ ADINA PARK İKİNCİ HƏYATINI YAŞAYACAQ

**Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində istər paytaxtımız, istərsə də regionlarımız gündən-gündən abadlaşır, genişlənir, gözəlləşir, əsil yaşıllıqlar diyarına çevrilir. Bunu Şirvan şəhərinin də timsalında aydın görürük. Son illərdə burada aparılan abadlıq-quruculuq işləri daha geniş vüsət almışdır.**

Mən 60 ildən çoxdur ki, bu şəhərin sakiniyəm. Necə deyərlər, hər daşına, hər kəsəyinə bələdəm. 1960-1970-ci illərdə salınmış hər birimizin sevimli istirahət yerlərindən biri, indiki Füzuli adına parkın yenilənməsinə ehtiyac vardı. Öyrəndim ki, Şirvan Şəhər İcra Hakimiyyəti tərəfindən təklif edilən layihə əsasında bu park yenidən qurulur, hədsiz sevindim.

Burada uşaq əyləncə qurğuları, yelləncəklər, müxtəlif idman qurğuları quraşdırılacaq. Mini-futbol meydançası tikiləcək. Füzuli adına park xüsusi işıqlandırma sistemi və müşahidə kameraları ilə təchiz ediləcək. Digər işlərin də görülməsi nəzərdə tutulmuşdur.

Bir sözlə, dahi şairimiz Məhəmməd Füzulinin adını daşıyan park ikinci həyatını yaşayacaq . Bu gözəl, yaraşıqlı park hər birimizin mənalı, gözəl istirahət guşələrindən birinə çevriləcək. Ona yeni həyat verənlərə alqış deyəcəyik.

**Yaqub SALMAN,**
**şair, publisist**




# 21№-li MƏKTƏB ÜÇÜN YENİ BİNA TİKİLİR

**Son illər şəhərimizin böyüyüb gözəlləşməsində, onun coğrafi xəritəsinin genişlənməsində inşaatçıların da əməyi böyükdür. Yeni -yeni fabirk və zavodların, idman, mədəni məişət obyektlərinin, həmçinin təhsil müəssisələrinin tikintisi buna əyani sübutdur.**

Məhəmməd Əmin Rəsulzadə prospektində yerləşən 21 nömrəli tam orta məktəb uzun müddət istifadə olunduğundan müasir tələblərə cavab vermirdi. Şəhər rəhbərliyinin təşəbbüsü ilə respublika səviyyəsində məsələ qaldırıldı, müsbət cavab alındı.

21 nömrəli tam orta məktəbin tikintisini Aztəmirtkinti MMC-nin inşaatçıları aparırlar. Şəhərin mərkəzindəköhnə məktəbin ərazisində inşa olunan bu yeni məktəb binasında işlərin necə getdiyin öyrənmək üçün obyektdə oldum. Sahə rəisi Fuad Səlimovla həmsöhbət oldum. Müsahibim məlumat verərək bildirdi ki, artıq bir aydır tikintiyə başlamışıq. Obyektdə 55 nəfər işçi çalışır. Onların da yarıdan çoxu yerli sakinlərdir. Material sarıdan deмək olar ki, tam təmin olunmuşuq. Gördüyünüz kimi hazırda zirzəmi işi başa çatmaq üzrədir. Hörgü və sair işlər keyfiyyətlə görülür.

Məktəb 624 yerlik 3 mərtəbəli və 5 blokdan ibarət olacaq. 3 bloku 3 mərtəbə, 2 bloku isə 2 mərtəbəlidir. İnşaatçılardan- briqadir Elnur Zabitli, dəmirçi Ceyhun Səlimov, dülgər Vüsal Hüseynov, krançı Şamil İsayev və başqaları daha səylə çalışırlar.

Sahə rəisi Fuad Səlimov onu da bildirdi ki, şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov bir neçə dəfə tikintiyə gəlmiş, işin gedişi və çətinliklərimizlə yaxından maraqlanmışdır. Lazımi köməyini əsirgəməmişdir. Məktəbi 2021-ci ilin əvvəlinə tikib təhvil verəcəyik.

**Musaxan HEYDƏRLİ**

# “MƏN TORPAĞAM» (R.RZA),
## yaxud şair Y.SALMANIN 80 illiyinə Şəmkir və Şirvan alatoranlığından salamlar



Dəyərli şair, şirvanlıların çoxunun fəxrlə müəllim dediyi Yaqub Salman özünün 80 illiyini bu günlərdə salamladı. Özü də qeyri-adi bir formada: nəfis şəkildə tərtib olunmuş növbəti yeni bir şeirlər toplusu ilə («Süleyman». «Müəllim» nəşriyyatı. Bakı-2020).

Bu mübarək salam onun taleyinə yazıldı. Öz mübarəkliyiylə, öz müqəddəsliyiylə heç kəsə qismət olmayan salam idi bu salam. Mən də ustufca bu salama şairin öz misraları ilə qoşuluram.

*Yolum doxsanadır deyim hər kəsə,*
*Hələ ki, odu var, sönməyib ocaq.*
*Mən kiməm, özümdən uyduram nəsə,*
*İlham deyənləri yazıram ancaq.*

Çox az adama qismət olur Yaqub Salman ömrü yaşamaq-bir kimsəni incitmədən, qəlb qırmadan, könül bulandırmadan, sevgi dolu, həyat dolu, halal, namuslu, işıqlı, nurlu, iddiasız əməli -saleh bir kişi ömrü

Qədim Şəmkir elindən-Morul kəndinin alatoranlığından çıxan Yaqub Şirvan diyarında pərvəriş tapıb bir vətəndaş, bir insan, bir məmur kimi, ən vacibi bir şair kimi mühitinin, müasirlərinin və zamanın tribunasına qalxdı. Yaqub Salman imzasfının respublika səviyyəsində tanıtdı, torpaq oğlu olduğunu fəxarətlə bəyan etdi.

*Hər ilham gələndə çağlayıram mən,*
*Dəli çaylar kimi aşıb-daşıram.*
*Ömür qısaldıqca əyilir bədən.*
*Torpağa bir az da yaxınlaşıram.*

Yaqub Salman poeziyasının başlıca bir meyarı var: müstəqil Azərbaycan, bütün insani dəyərlərin məhək daşı vicdan, əbədi ilahi sevgi və hələ də öz arxaikliyini itirməyən xatirələrdə yaşayan kənd həyatı. Bütün bunlardan kənarda nə varsa onun poetik orbitində yaşaya bilməz. Bu amala zərrə qədər, iynənin ulduzu qədər ziyan gətirən hər şey onun poetik fəryadına çevrilir. Onun poeziyası Azərbaycançılıq yanğısı ilə yoğrulub. Nə qədər səbirli, təmkinli olsa da o yanğının alvounu görərsən. Bir sözlə, Y.Salman-Vətənkeş şairdir. Bu yoldan sapanlara, hərkihərkilik etmək istəyənlərə. «Fatı otur, Fatı qalx!» kodeksi ilə yaşayanlara xitabən deyir:

*Dağa sataş - cəsarətin çatırsa,*
*Nə düşmüsən bir təpənin üstünə.*
*Hücüm elə kişi kimi, nər kimi,*
*Bir yaraya düz səpənin üstünə.*

Y.Salman şeir, poeziya aləmində min illərdən bəri tərənnüm olunan sevginin, məhəbbətin özünün də özünəməxsus çalarları mövcuddur. Onun şair fəhmi ilə işlətdiyi ifadələr




sevgi obyektinə tamamilə başqa bir bucaqdan baxmaqdır:

*…Sən-ömrün gündoğanında,*
*Mən-günbatanındayam…*
*Gözəllikdə bir təksən,*
*Cüyürtək ürkəksən.*
*Özün gülsən, çiçəksən.*
*Gül nəyinə gərəkdir.*

Belə nümunələri çox göstərmək olar. Şair mənəviyyat aləminə yeni bir baxış sərgiləyir. Gözəlliyi gözdən salanlara qarşı üsyan edir, gözəlliyi gərəksiz bir şeyə çevirənləri ittiham edir:

*Fələk çatsın dadına,*
*Salma yaşı yadıma.*
*Qızınmadın oduma,*
*Kül nəyinə gərəkdir.*

Müəlilf gözəllərin vurğunu olduğu kimi, gözəlliyin də aşiqidir. Kitabın «Təbiət» bölməsində cana yatan misraları, beytləri, bəndləri saysız hesabsızdır. Məsələn «Təbiət düşünür» şeirində oxuyuruq:

*Təbiət kimsəsiz uşaq kimidi,*
*Elə bil dindirsən ağlayacaqdı.*

Səfəri Göygölə düşən təbiət vurğunu şair «Kəpəz» şeirində əsrarəngiz gözəlliyi belə bədiləşdirir:

*Göygölə baxıram quzuya bənzər,*
*Başı anasının sinəsi üstə.*

və ya,

*Öləndə başında ölüm, ay Kəpəz,*
*Zirvən bir qarış da ucalsın deyə.*

Y.Salman yaradıcılığının göz yaşı əksər şairlər kimi yar vəfasızlığından, tənhalıqdan, həyatın amansızlığından, baharın gedişi, qışın gəlişi, dağların duman-çən geyməsi və s. və i. deyildir. Onun yaradıcılığının bircə ağrılı yeri var: QARABAĞ ağrısı.

*Axır Göyçəgölü Sevan oldu,*
*İrəvan çevrilib Yerevan oldu.*

Ömür sarayının doxsanına qalxan Yaqub Salmana Sabiranə bir diləklə: «Bənzərəm qocaman bir dağa ki, dəryada durar» amacıyla yeni poetik uğurlar arzulayıram.



**Şahid ƏFƏNDİ**

ŞİRVAN MƏTBUATI-90

# QƏZETİMİZİN REDAKTORLARI

## 1.Məmmədəli Nasir



**1914-cü ildə «Molla Nəsrəddin» jurnalında «Qarınqulubəy» imzası ilə təzə bir müəllifin ,Mirzə Cəlilin dili ilə desək, «balaca Molla Nəsrəddinçi»nin «Ələhəm qiraətxanası» adlı məqaləsi dərc olunmuşdu. Bu ciddi tənqidə görə, «Qarınqulubəy»-Məmmədəli Nasir xəncərlə yaralanmışdı.**

Lakin həmin hadisə on üç, on dörd yaşlı Məmmədəli Nasiri qorxutmur. O, «Molla Nəsrəddin» jurnalında tez-tez kəsərli yazılarla çıxış edirdi. Sonralar «Azərbaycan füqərası»nda kəskin məqalələri oxucu diqqəti çəkdi. Gəncədə «Qızıl Gəncə», Gürcüstanda çıxan «Kommunist», Ermənistanda çıxan «Kommunist», daha sonra Ağdamda «Ağdam kolxozçusu», «Qızıl Bərdə», «Yüksəliş» (Dəvəçi), «Pambıq zərbəçisi (Əli Bayramlı) rayon qəzetlərinin redaktoru olur.

İstedadlı jurnalist Məmmədəli Nasir Əli Bayramlıda (indiki Şirvan şəhər) redaktor olduğu illəri belə xatırlayırdı: 1930-cu ildə Mərkəzi Komitənin yeni yaradılan rayonlarda qəzetin buraxılmasına aid qərar çıxdı. O vaxt hər sahədə olduğu kimi, mətbuatda da kadr çatışmırdı. Biz «Molla Nəsrəddin»çiləri Mərkəzi Komitəyə çağırdılar. Mən əvvəl laçında, Bərdə və Ağdamda rayon qəzeti redaktoru kimi fəaliyyət göstərdim. Çətinliklərə baxmayaraq tapşırılan işin öhdəsindən gəldim. Sonra məni Əli Bayramlıya göndərdilər. Mehmanxanada qalırdım. Yerli fəal ziyalıları ətrafıma topladım. Onlardan biri yerli yazar Əli Əlizadə idi. Burada da çətinliklərlə rastlaşdım. Mətbəəni yenidən təşkil etmək, orada çalışanları peşəkar kimi yetişdirmək müxbir yetişdirməkdən asan deyildi. Amma biz gənclər qarşımıza qoyulan məsul vəzifəni layiqincə yerinə yetirmək üçün gecəli-gündüzlü çalışdıq. «Pambıq zərbəçisi»-nin (mənim redaktorluğumla) ilk nömrəsinin çapını görəndə sevincim yerə-göyə sığmadı. Rayon sakinləri ilk nömrəmizi maraqla qarşıladılar. Tam səmimiyyətlə deyirəm ki, bundan əvvəl qəzeti çapa hazırlayanlar olduqca səriştəsiz olmuşdular. Bizim qəzet isə əldən ələ gəzdi

Onu da qeyd edək ki, ilk redaktorlarımızdan biri Məmmədəli Nasir ittifaq əhəmiyyətli fərdi təqaüdçü idi. Səmərəli xidmətlərinə görə orden və medallarla təltif olunmuşdur.

Bakıda Milli kitabxanada nüsxələri qorunan «Pambıq zərbəçisi»ni nəzərdən keçirərəkən Məmmədəli Nasir kimi istedadlı jurnalistin, eləcə də ətrafına cəlb etdiyi yerli yazarların əməyi gözlərimin qarşısında canlandı.

Haqq dünyasına qoşumuş qələm sahiblərinə,o cümlədən Məmmədəli Nasirə Allahdan rəhmət diləyirik.

**F.RƏHİMOV**

# DOST İTKİSİ YAMAN OLUR

*Gəlin itirməyək dostları ,qardaş,*
*Onsuz da çox deyil yaxşı dost, qardaş*
*Dostluq qalasından bir kərpic, bir daş*
*Uçurub aparır hər saat, hər il-*
*Bizim dost itirən vaxtımız deyil.*

*Hafis Baxış*



Şairə əhsən! Ancaq məgər dost itkisinin qarşısını almaq bizdən asılıdır! Hər birimiz üçün yazılan gün, ay, il, saat, dəqiqə, saniyə var. O vaxt yetişdimi, getməliyik. Bu yaradanın əmridir. Əmr isə müzakirə olunmur. Xahiş, minnət də qəbul edilmir

Eldar Qəmərli imzası diqqətli oxucunun yaxşı yadındadır. Kəskin felyetonları, maraqlı, publisistik yazıları ilə diqqəti cəlb edirdi. Yaradıcılığında tənqidə xüsusi önəm verirdi. Ən çox « İşıq» qəzetində çıxış edirdi.

Neçə-neçə dəyərli kitabın müəllifi istər orta, istərsə də ali təhsil illərini, necə deyərlər, boşa verməmişdi. Güclü mütaliəsi vardı. Oxuduqlarını kor-koranə qəbul etmirdi. Öz beyin süzgəcindən keçirər, sonra qəti fikrini söyləyərdi.

Eldar müəllim əsl dost idi. Düzlüyü, sədaqətliliyi ilə həmişə fərqlənirdi. Bütün işlərdə məsuliyyətli idi. Savadsız insanı qəbul etməzdi. İradını düz üzünə deyərdi. Dəqiq desək, savadsızlığına görə onu ciddi tənbeh edərdi. Qəzet, jurnal, kitab mütaliə etməyə istiqamətləndirərdi.

O, gözəl ailə sahibi kimi fərqlənirdi. Ağıllı, əxlaqlı, savadlı övladlar tərbiyə edib. Övladcanlı idi. Onlar üçün çox narahatlıq keçirərdi. Deyrdi ki, bu mürəkkəb, çətin zəmanədə onları yerbəyer etsəydim yaxşı olardı. Övladlarının təhsil almaları üçün əlindən gələni əsirgəmirdi. İstər qızları, istərsə də oğlanları onun bu arzusunu həyata keçirdilər.

Qızın təhsil almasının vacibliyini xüsusi qeyd edirdi. Deyirdi kim bilir qız hansı ocağa düşəcək

Hər kəsin bir alın yazısı, yaradanın verdiyi ömür payı var. Eldar Qəmərli də bu ömrü yaşadı. Ləyaqətlə, şərəflə.

Uzun illər şəhər mədəniyyət şöbəsində inspektor kimi fəaliyyət göstərdi. Şirvanın mədəni sahəsinin inkişafında əlindən gələni əsirgəmədi. Çiyin yoldaşları onu əvəzolunmaz kadr kimi tanıyırdılar. Bilik və bacarığını heç kəsdə əsirgəməzdi.

İllərə nə var ki... Eldar müəllimin haqq dünyasına qovuşmasından 1 il ötdü. Amma illər ötsə də bu nəcib insan, sədaqətli dost xatirələrdə yaşayacaq.

Eldar Qəmərli itkisi bizləri, xüsusilə bir dost kimi məni həmişə yandıracaq.

Min rəhmət sənə, Eldar müəllim!

**F.RƏHİMOV**

# HƏR KƏS ÖZ UĞURUNUN MEMARIDIR

**İnsan övladı hər zaman böyük müvəffəqiyyətlər əldə etməyə can atıb və yeni-yeni uğurlar qazanmağa da. Doğrudur bəzən bizlər hansısa uğursuzluqlardan ötrü məyus olur, uğur qazana bilmədiyimiz üçün ruhdan düşürük. Fəqət, elə bu məqamlarda bir məsələni unuduruq: Hər kəs öz uğurunun memarıdır.**

Bəli, bizlər gözləməli deyilik ki, uğur gəlib özü bizi tapacaq. Əksinə öz uğurumuzu özümüz inşa etməliyik. Bizdə haqlı olaraq belə bir sual yaranacaq. Bəs biz öz uğurumuzun memarı necə olacağıq? Əlbəttə bu sualın cavabı bizim daim əzmkar olmağımızda, qarşımıza çıxa biləcək çətinlikləri dəf etməyimizdə, lazım gəldikdə təmkinli olmağımızda, usanmadan, yorulmadan çalışmağımızdadır.

Necə demiş böyük milyarder Bil Qeyts: «Əgər sən dünyaya kasıb gəlirsənsə bu sənin günahın deyil, ancaq bu dünyadan kasıb gedirsənsə bax bu sənin günahındır».

Deməki bizlər əzmkarlığımızla öz uğurumuzun memarı ola bilərik də, bunu bacaracağıq da.

**Həsən HÜSEYNOV,**
**BDU-nun tarix fakültəsinin**
**I kurs tələbəsi**

# MÜDRİK SÖZLƏR

Danış ki, mən səni görə bilim.
*(Sokrat)*

Hər şeyi dərk etmək olar, yalnız özünü dərk edə bilməzsən.
*(Con Steynbek)*

İki bədbəxt bir yerdə xoşbəxtdir.
*(Fransız məsəli)*

Hər hansı bir işdə uğur qazanmaq üçün gərək bir az dəli olasan.
*(Şekspir)*

Qocaya hörmət Allaha hörmətdir.
*(Məhəmməd Peyğəmbər)*

Dünyada üç fəlakət var: yanğın, qadın və dəniz
*(Ezop)*

Bir gün ədalətlə iş görmək altımış il ibadət etməkdən üstündür.
*(Məhəmməd Peyğəmbər)*

Ağıllı uşaq nadan qocadan yaxşıdır.
*(Ərəb atalar sözü)*

Böyük vədlər etibarı azaldır
*(Horatsi)*

İnsan varlığının sirri yalnız yaşamaqda deyil, nəyin xatirinə yaşamaqdadır.
*(F.M.Dostayevski)*

Ana müqəddəsdir, ana doğmadır,
Ən böyük məhəbbət yalnız anadır.
Yoxsa da dünyanın ucu bucağı,
Hər yerdə istidir ana qucağı.
*S.Vurğun*

Düşmənin gözləri həmişə iti görür.
*(M.Qorki)*

Ən dəhşətli tənhalıq dostlarsız qalmaqdır.
*(F.Bekon)*

İnsan daşdan bərk, güldən incə olmalıdır.
*(atalar sözü)*

Kitabsız öyrənmək istəyən xəlbirlə su götürənə oxşayır.
*(şərq məsəli)*

Pis hava yoxdur, pis geyim var
*(ingilis məsəli)*

Qorxu qəddarlığın anasıdır.
*(Monte)*

*Topladı: Əbil ƏHMƏDOV*

# ƏLLƏRİN VAR OLSUN, HƏKİM!

**Həkimlik peşəsi doğrudan da ən şərəfli peşələrdən biridir. İnsanların sağlamlığı keşiyində durmaq, onları ölümün pəncəsindən qurtarmaqdan şərəfli nə ola bilər ki?!**

Bu günlərdə 8 yaşlı oğlum Cəfər qəflətən xəstələndi. İlk tibbi yardımın da xeyri olmadı. Cərrahiyyə əməliyyatının vacibliyi söylənildi. Məslət gördülər ki, Nəsib doktora da göstərmək lazımdır. Tez Şirvan Müalicə Diaqnostika Mərkəzinə getdik. Mərkəzin baş həkimi, tibb üzrə fəlsəfə doktoru həkim- cərrah Nəsib Səhratov oğluma baxıb diaqnoz qoydu: Təcili əməliyyat olunmalıdır. Artıq oğlum özündə deyildi. Onu itirmək qorxusu vardı

Əməliyyat çox uğurlu alındı. 3 gündən sonra oğlum sağ-salamat ailəmizə qayıtdı.

Hörmətli redaksiya, övladımı təmənnasız əməliyyat edib yenidən bizə qaytardığı üçün həkim-cərrah Nəsib Səhratova, tibb bacılarından Kəmaləyə, Pərvanəyə, laborant Gülər Əliyevaya ailəmiz adından təşəkkürümüzü çatdırırıq. Və sonda bir də deyirəm. Əllərin var olsun, həkim!

**Günel HEYDƏROVA, müəllim.**
**Tofiq İsmayılov küçəsi,**
**bina 17, mənzil 8**

# ETIBARSIZDIR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət reyestri Xidməti Hüququnun Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın reyestrindən Əhmədov Rəfael Ağalar oğluna verilmiş (Şirvan şəhəri, T.Ələkbərov küçəsi 21/90) mənzilin PX sereiyalı, 1465062 nömrəli çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

ƏSGƏR MƏKTUBU

# TORPAQLARIMIZI AZAD ETMƏYƏ HAZIRIQ

**Birillik hərbi xidmətimi uğurla başa vurdum. Tam səmimiyyətlə deyirəm ki, ali təhsil aldığım illər mənim üçün nə qədər yaddaqalan, maraqlı idisə, birillik əsgərliyim mənim üçün daha dəyərli, daha gərəkli oldu. Bu 1 ili düşmənlə üzüzə səngərdə keçirdim. Fəxrlə deyirəm ki, Vətən keşikçisi olduğuma görə qürur hissi duyuram.**

Əsgərlikdəki ilk günlərim nə qədər çətin oldusa, sonralar hər şeyə alışdım. Xüsusilə azğın düşmənin həmlələrini dəf etdikdə Milli Ordu əsgəri olduğuma görə qürurlanırdım.

Hərbi texnikanın sirlərinə asanlıqla yiyələnmədim. Təcrübəli yoldaşlarım, zabitlərimiz öz köməklərini bizlərdən, gənc əsgərlərdən əsirgəmədilər. Biz də öz növbəmizdə onların hər bir tövsiyəsini, tapşırığını layiqincə yerinə yetirmək üçün imkanlarımızdan maksimum istifadə edirdik.

Hər əlamətdar günlərdə, bayramlarda azğın düşmən rahatlığımızı pozmağa çalışır. 26 iyun Silahlı Qüvvələri Günündə də belə oldu. Amma biz həmişəki kimi ayıq-sayıq idik. Sərhədlərimizə soxulmaq istəyən erməni təxribatçılarına layiqli «dərs» verdik.

Mən artıq əsgəri borcumu yerinə yetirmişəm. Amma lazım gələrsə yenidən silaha sarılıb azğın düşmənlərə qarşı döyüşə hazıram. Biz gec-tez işğal altında qalan torpaqlarımızı erməni qəsbkarlarından azad edəcəyik. Bunun üçün güclü ordumuz, istənilən qədər döyüş texnikamız və bu texnikadan bacarıqla istifadə etməyi bacaran əsgər və zabitlərimiz var. Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin hər bir əmr və tapşırığını vaxtında, dəqiq yerinə yetirməyə hazırıq.

**Əli RƏHİMLİ,**
**ehtiyatda olan əsgər**

## “İŞIQ”- 2020
## ƏZİZ OXUCULAR!

2020-ci ilin II yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a abunə yazılışı davam edir.
6 aylıq abunə haqqı 14 manatdır.
«İşıq»a KAPİTAL BANKIN Şirvan şəhər filialında və 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN -2100104521. İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

Baş redaktor:
F.N.RƏHİMOV

Təsisçilər:
Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və “İşıq”qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər
Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.
Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650